Programmatic Cooperation Framework for
Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus

Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

# MƏTBUAT ÜÇÜN MƏLUMAT

## Azərbaycan Respublikasında məhkəmə xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması

### Layihədən kim faydalanacaq?

- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Akademiyası;
- Ədliyyə sisteminin səmərəliliyi və keyfiyyətinə dair peşəkar təlim keçən hakimlər və məhkəmə heyəti;
- Yerli tərəfdaşlar ilə birgə seçilmiş məhkəmə istifadəçiləri tərəfindən etimad və məmnuniyyətlə qarşılanacaq pilot məhkəmələri;
- Daha sürətli və keyfiyyətli məhkəmə xidmətlərindən faydalanacaq məhkəmə istifadəçiləri.

### Layihənin məqsədləri

- Pilot məhkəmələrində vaxtın idarə edilməsinin və məhkəmə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;
- Məhkəmə idarə orqanlarının məhkəmələrdə fəaliyyətinin səmərəliliyinin və keyfiyyətinin qiymətləndirilməsi və cavab olaraq müvafiq tədbirlərin görülməsinə dair bacarıqların artırılması.
- Məhkəmə xidmətlərinin artırılmış səmərəliliyi və keyfiyyətinə dair fəaliyyət planının tərtib edilməsi və onun yerli səviyyədə icrasının təşviqi.

### Layihə hansı vasitələri ilə icra olunacaq?

- Ədliyyə Sisteminin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən Avropa məhkəmə sistemlərinin təcrübəsi əsasında tərtib edilmiş metodologiyanın və praktiki alətlərin tətbiqi vasitəsilə;
- Məhkəmələrin faydalana biləcəyi məhkəmə heyətinin bacarıqlarının artırılmasına dair proqramın, məhkəmələrin işinin səmərəliliyinin və istifadəçilərin məmnuniyyətinin artırılmasına dair tədbirlərin icrası məqsədilə CEPEJ ekspertləri və pilot məhkəmələri arasında davamlı əməkdaşlıq və qabaqcıl təcrübələrin mübadiləsi;
- Hakimlər və məhkəmə heyəti üçün təlim proqramına məhkəmə fəaliyyətinin səmərəlılıyi və keyfiyyəti üzrə mövzuların təqdim edilməsi;

### Layihə çərçivəsində fəaliyyətlər

- Məhkəmə statistikasının təkmilləşdirilməsi, şəffaflığın və kommunikasiyasının artırılması, məhkəmə istifadəçiləri üçün məmnuniyyət sorğularının təqdim edilməsi və s. vasitəsilə, Azərbaycan Respublikasının beş pilot məhkəmələrində CEPEJ tərəfindən tərtib edilmiş metodolgiya və alətlərin icrasına dəstək;
- Ekspertlərin tövsiyələri, təlimçilər üçün təlim və kaskad seminarları vasitəsilə effektiv məhkəmə idarəçiliyi və ədliyyə sisteminin keyfiyyəti üzrə hakimlər üçün təlimlərin təkmilləşdirilməsində Ədliyyə Akademiyasına dəstək.

Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

# MƏTBUAT ÜÇÜN MƏLUMAT

## Azərbaycan Respublikasında məhkəmə xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması

- Tamamlayıcı yanaşma və hazırkı islahatlara əsaslanma. Avropa İttifaqı və digər beynəlxalq və milli tərəfdaşlar ilə sıx koordinasiya.

### Layihənin büdcəsi

- Layihənin cəmi büdcəsi 1.5 milyon avro təşkil edir.

### Layihənin müddəti

- Layihə 1 yanvar 2015-ci il tarixindən 31 dekabr 2016-ci il tarixinə qədər müddətində icra olunacaq.
- Birinci component üzrə fəaliyyətlərin başlanğıcı 22 iyul 2015-ci il tarixində keçirilib.

### Layihənin icrası üçün kim məsuliyyət daşıyır?

Layihənin 1-ci Komponentinin icrası Avropa Şurasının Ədliyyə və Hüquqi Əməkdaşlıq Şöbəsi tərkibində Ədliyyə Sisteminin Mustəqilliyi və Səmərəliliyi Bölməsi tərəfindən həyata keçirilir, hansı ki eyni zamanda CEPEJ Katibliyi olaraq fəaliyyət göstərir.

Avropa Şurasının Azərbaycan Respublikasında Ofisi layihənin icrasında fəal iştirak edir və layihə icrasını dəstəkləyir.

### Daha ətraflı məlumat üçün əlaqə məlumatı

- Leonid Antohi, Layihə Koordinatoru, leonid.antohi@coe.int
- Aynur Quliyeva, Layihə üzrə məsul şəxs, aynur.quliyeva@coe.int

Programmatic Cooperation Framework for
Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

# MƏTBUAT ÜÇÜN MƏLUMAT

## Azərbaycan Respublikasında məhkəmə xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması

*2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası Aİ Şərq Tərəfdaşlığı ölkələri- Ərmənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus Respublikası ilə birgə hədəflərə yönələn fəaliyyətlərin "Proqram Əməkdaşlığı Çərçivəsi" (PƏÇ) altında icra olunacağı barədə razılaşdılar.*

*Bu birgə fəaliyyətlər, Belarus Respublikası istisna olmaqla, Avropa Şurasına üzv olan bu Şərq Tərəfdaşlığı ölkələrin insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində onların daha da Avropa standartlarına yaxınlaşdırılması məqsədilə daxili islahatların icrasına dair bacarıqlarını artıracaq.*

*2015-2017-ci illər üzrə PƏÇ üçün nəzərdə tutulmuş büdcə 33.8 milyon avro təşkil edir.*